# Ümumtəhsil məktəblərində tarixin tədrisində demokratiya və humanizm prinsiplərindən istifadənin nümunəvi vətəndaşın tərbiyə edilməsinə təsiri

**Damla Sevindik qızı Həsənzadə**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** damlahesenzadeh97@gmail.com

**Rəyçilər:** t.ü.f.d., dos. S. X. Məmmədova,
p.ü.f.d. D.M. Musayev.

**Açar sözlər:** tərbiyə, təhlil, pedaqoji proses, təhsil sistemi, dərs
**Ключевые слова:** образование, анализ, педагогические процессы, система образования, урок
**Key words:** education, analysis, pedagogical process, educational system, lesson

İnsanın hər hansı bir iş sahəsində çalışmasının, nə barədə fikirləşməsinin və s. səylərin fəaliyyət olduğu bəllidir. Məhz orta məktəbdə qazanılan bilik şəxsiyyətin gələcək simasını müəyyən edir. Müəllimin işi böyüyən insana təsir üzərində qurulduğu və bu insana bələdlik tələb etdiyi üçün bu elmin nəzəri baxışlarını bilmək çox vacibdir. Müəllim-şagird münasibətlərinin praktik istiqamətində qaydalar, pedaqoji metodlar nə qədər çoxluq təşkil etsə də, ən optimal və yararlı istiqaməti müəllim özü tapmalıdır.

Deməli, təhsil prosesində müəllimin interaktiv fəaliyyəti həlledici əhəmiyyətə malikdir. Düzdür, müasir təlim prosesində əsas mərkəzə təhsilalan qoyulur ancaq bu müəllimin öyrədici, istiqamətverici funksiyasına təsir etmir. Təhsilalanlar azad tədqiqatçılığa yönləndirilirlər. Ona görə də müəllim ilk növbədə dərslərdə istifadə etdiyi təlim prinsiplərini diqqətlə seçməli və mövzu ilə əlaqəli olaraq bütün təlim prinsiplərindən istifadə etməlidir.

Müasir təlim sistemində orta məktəbdə, tarixin tədrisi zamanı müəllimin digər təlim prinsipləri ilə yanaşı demokratiya və humanizm prinsiplərindən əhatəli şəkildə istifadəsi daim göz önündə saxlanılmalıdır. Humanizm və humanist münasibətlərin tarixi qədim olsa da anlayış kimi İntibah dövründə elmi dövriyyəyə daxil edilib. Bu dövrün pedaqoji nəzəriyyələri sonrakı dövrlərdə maarifçilik ənənələrinin yaranmasına, humanist pedaqoji ideyaların formalaşmasına güclü təsir edib. Bu prinsiplər sadəcə şagirdlərə elmi bilikləri mənimsətmir, həm də şagirdlərin bir şəxsiyyət kimi formalaşmasına təkan verir. Müəllim tərbiyə məsələlərini müntəzəm və məqsədyönlü şəkildə, həm də ilk növbədə təlim prosesində həll edir [1, s 21].

Şagirdlərə humanizm öyrədilməsə onlar nə tarixi hadisələrə lazımı münasibət bəsləyə, nə də şəxsi həyatında şəxsiyyətyönlü qərar qəbul edə bilər. Demokratiya və humanizm prinsiplərini şagirdlərə ilk növbədə elmi cəhətdən tədris etməklə daha sonra şəxsi inkişafında istifadəsini təşkil etmək olar.

Demokratiya və humanizmin şagirdlərə aşılanmasının məqsədi sadəcə elmi biliklər verməkdən ibarət deyil, həm də tərbiyə prosesinin təşkil edilməsi ilə əlaqədardır. Ümumtəhsil məktəblərində tarix təlimi prosesində şagirdlərin tarixi fakt və hadisələr haqqında adekvat münasibətin formalaşmasında bu prinsiplər mühüm əhəmiyyətə malikdir.

Təhsilin məzmununda milli xüsusiyyətlər mütləq nəzərə alınmalıdır. Bütün bunları nəzərə alaraq tarixi keçmişimizə sağlam düşüncə ilə nəzər salaraq, inkişaf etmiş ölkələrin təhsil sisteminin, metodlarını, prinsiplərini öyrənməklə respublikada təhsilin yenilənməsində daha faydalı strukturlarını müəyyən etməyə çalışmalıyıq. Heydər Əliyevin bir kəlamında deyilir: “Xal-

qımızın fitri istedadı və XX əsrdə təhsil sahəsində toplanmış təcrübə, yaranmış məktəblərin potensialı, yüksək təhsil vermək səviyyəsi Azərbaycanın indi orta məktəbdə təhsil alan gənc nəslinin gələcəyi hərtərəfli hazırlanmasına təminat verir. Ona görə də məktəb, müəllimlər Azərbaycanın gələcəyi üçün məsuliyyət daşıyır".

Azərbaycanda təhsil sisteminin idarə edilməsi strukturu milli zəminə, türk dünyasının və islam əxlaqının yaratdığı mənəvi sərvətlər və ümumbəşəri dəyərlərə əsaslanmalıdır. Bununla yanaşı təhsil sistemi həm də dünyəvi xarakter daşıyır, bütün dünyada təhsil sisteminə görə inkişaf etmiş dövlətlərin təcrübələri dəyərləndirilməli və tətbiq edilməlidir. Təhsilin inkişafı üçün bu təcrübələrdən istifadə etmək olduqca əhəmiyyətlidir. Məhz dünyanın ən öndə gedən, inkişaf etmiş təhsil sistemlərində də bu prinsiplərdən yüksək səviyyədə istifadə olunur. Demokratiya və humanizm prinsipləri ən çox bu ölkələrin təhsil sistemində əsas yerləri tutur. Azərbaycan demokratik duruşu ilə həmişə örnək olmuşdur. Bunu təhsil sistemində tətbiq edərək bir daha sübut edir.

İnsanın inkişafı və onun şəxsiyyət kimi formalaşması üç başlıca amilin irsiyyət, mühit və təhsil-tərbiyənin qarşılıqlı təsiri ilə həyata keçirilir. Təhsil-tərbiyə amili mütəşəkkil mühitə aiddir. Onu ümumi mühitdən ayrı, kənarda təsəvvür etmək mümkün deyil [5, s. 74].

Tarix dərslərində humanizm və demokratiya prinsiplərindən istifadənin məqsədi yalnız elmi biliklər vermək, fakt və hadisələri təhlil etmək deyil, həmçinin şagirdin gələcəkdə bir şəxsiyyət kimi formalaşmasını təmin etməkdir. Tarixin tədrisi təhsil vəzifələri ilə yanaşı, tərbiyəvi vəzifələri də həyata keçirir (2. s.15).

Şagird bu prinsipləri tətbiq etməyi bacarsa bu yalnız dərsdə deyil, şəxsin bütün həyatı boyu ona geniş imkanlar açacaq. Buna universitet dövrünü, iş həyatını və s misal göstərmək olar. Təhsil sistemin əsasını yalnız fakt və hadisələri öyrənmək təşkil etmir, həm də şagirdlərin gələcək çətinliklərə hazırlandığı həyat məktəbi təşkil edir. Şagird təlimin fəal iştirakçısı olmaq üçün hazırlanmalıdır. Müəllim şagirdə dünyanı başa düşməkdə və qazandığı bilikləri real həyat şəraitində tətbiq etməyi aşılamalıdır. Pedaqoji şəraiti elmi cəhətdən qiymətləndirmək, təlim-tərbiyənin gələcəyini əvvəlcədən duymaq, əsas məsələləri düzgün seçmək, gündəlik işləri vaxtında icra etmək əsas məsələ kimi qarşıda durmalıdır (3. s.24).

Tarixin tədrisində bu metodlardan istifadə olunmasa şagird tarixi fakt və hadisələri real şəkildə təhlil etməyi bacarmaz, hər hansı fakta qarşı mənfi münasibət bəsləyə bilər. Bu prinsiplər elə yüksək dəyərlərə malikdir ki, şagirdlərin yalnız dərslərdə deyil, həm də dərsdənkənar vaxtlarda da istifadə etmək imkanları yaranır.

Müasirlik yalnız təlim metodlarından deyil, həm də onun prinsiplərinin nəzərə alınmasında özünü göstərir. Əgər metodlar daha çox biliyə yiyələnməyə xidmət edirsə, prinsiplər sosiallaşma amilini gücləndirir. Bu baxımdan təhsil sistemində humanizm və demokratiya prinsiplərinin nəzərə alınmasının mühüm sosial-siyasi əhəmiyyəti vardır. Bu əhəmiyyət biristiqamətli xarakter daşımır, təhsil prossesinin bütün yönlərini əhatə edir. Təhsil izah olunması çətin olan sehrli qüvvəyə malikdir (4. s.146).

Tarix dərslərində humnazm və demokratik yanaşma bir-biri ilə sıx bağlıdır. Mənim fikrimcə bu prinsiplər sadəcə dərslərdə tətbiq olunmamalı, bütün məktəb idarəetmə sistemlərində də tətbiq edilməlidir. Çünki bu proses hər kəsin, auditoriyanın, qrup və kollektivin, həmçinin rəhbərliyin bu prinsiplərə riayət etməsindən-vahid rejimə çevrilməsindən sonra böyük səmərə verə bilər. Müasir təhsil sistemimiz 90-cı illərin təhsil sistemindən dəfələrlə yaxşıdır. Əsas səbəb isə təhsil strategiyasının düzgün müəyyənləşdirilməsidir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiya iclasınının materiallarında göstərilir: "Fasiləsiz təhsil kontekstində şəxsiyyətin, kamil insanın hazırlığı üzrə dünya təcrübəsinə

inteqrasiya prinsipi zəruri amil kimi qəbul edilməli, həmin istiqamətdə konkret fəaliyyət həyata keçirilməlidir". Bu bir daha humanizm və demokratiya prinsiplərindən istifadənin genişləndirilməsinin zəruriliyini sübut edir. Təhsil sahəsində mütərəqqi yenilik etmək çox çətin, ancaq səhv etmək çox asandır. Bu səbəbdən də təhsildə səhv yolverilməzdir. Ona görə də hər addım yüz ölçülüb, bir biçilməlidir.

**Məqalənin aktuallığı.** Demokratiya və humanizm prinsiplərinin tətbiqi zamanı müxtəlif metodlardan istifadə olunması xüsusi aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Müasir təlim prosesinin tələblərindən irəli gələrək demokratiya və humanizm prinsiplərin formalaşdırılmasıda innovativ metodların tətbiq edilməsi və daha da təkmilləşdirilməsinə ehtiyac var.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tarix təlimi prosesində demokratiya və humanizm prinsiplərindən istifadə təhsilalanların tərbiyə prosesinə olduqca böyük təsir göstərir.

## Ədəbiyyat

1. Məmmədov M.S. Tarixin tədrisinin aktual problemləri. Bakı, 2015.
2. Əmirov M.M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikasi (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti). Bakı, 2011.
3. Rzayev O.H, Məmmədov S.M. İsmayılov Ş.N. Təhsilin idarə olunmasının əsasları. Bakı 2010.
4. Əsgərov Ş. Təhsilimiz dünən, bu gün və sabah. Bakı, 2000.
5. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı, 2010.

**Д.С. Гасанзаде**

## Влияние использования принципов демократии и гуманизма в преподавании истории в средней школе на воспитание образцового гражданина

### Резюме

Важность принципов демократии и гуманизма в личном и научном развитии учащихся. Эти принципы были подробно изучены и отмечены различные подходы. Также изучалось и анализировалось влияние использования демократии и гуманизма на образовательный процесс.

**D.S. Qasanzada**

## The impact of using principles of democracy and humanism in teaching history in general education schools on educating a model citizen

### Summary

In the article, the significance of the principles of democracy and humanism in students' personal and academic development in secondary schools has been researched, those principles have been studied thoroughly, and various approaches have been mentioned. The influence of using democracy and humanism on educational process has also been investigated and analyzed.

**Redaksiyaya daxil olub:** 30.01.2021